

# Gəncə yenidən dünyanın diqqət mərkəzindədir

**Gəncədə iki il qabaq erməni hərbi birləşmələrinin törətdikləri terror aktları yenə dünyanın diqqət mərkəzindədir. Xarici ölkələrdən gələn rəsmi qonaqlar, diplomatik korpusların nümayəndələri, KİV təmsilçiləri 2020-ci il oktyabrın 4-ü, 5-i, 8-i , 11-i və 17 –də şəhərdə törədilən cinayətin izlərini öz gözləri ilə görür və dəhşətə gəldiklərini açıq-aşkar büruzə verirlər.**

**(ardı 6-cı səhifədə)**

# Gəncə yenidən dünyanın diqqət mərkəzindədir

(əvvəli 1-ci səhifədə)

## Xarici ölkələrin hərbi attaşeləri hadisə yerində

Azərbaycan Respublikasında akkreditə olunmuş xarici ölkələrin hərbi attaşeləri Gəncə şəhərində Ermənistan silahlı qüvvələrinin raket hücumları nəticəsində həlak olan mülki əhalinin xatirəsini anıblar.

Müdafiə Nazirliyinin təşkilatçılığı ilə hərbi attaşelər Vətən müharibəsi zamanı erməni hərbi birləşmələri tərəfindən Gəncədə törədilən terror hadisəsinin baş verdiyi ərazidə olublar. Onlar həlak olan dinc sakinlərin xatirə guşəsinin önünə gül dəstələri düzüblər.

Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi, general-mayor Hüseyn Mahmudov xarici ölkələrin hərbi nümayəndələrinə 2020-ci ildə 44 günlük müharibə zamanı Ermənistan silahlı qüvvələri tərəfindən beynəlxalq humanitar hüququn norma və prinsiplərinə zidd olaraq mülki əhali arasında maksimum itki vermək məqsədilə Gəncə, Bərdə, Tərtər, Mingəçevir, Beyləqan, Qəbələ, Goranboy, Ağcabədi, Naftalan, Abşeron və Xızı rayonlarının qəsdən ballistik raketlər və digər ağır artilleriya qurğuları ilə bombalandığı barədə ətraflı məlumat verib.

Hərbi attaşelərin diqqətinə çatdırılıb ki, İkinci Qarabağ müharibəsi dövründə Ermənistanın hərbi təcavüzü nəticəsində ümumilikdə 12-si uşaq və 27-si qadın olmaqla 93 mülki şəxs həlak olub, 454 mülki vətəndaş yaralanıb, 12292 yaşayış və qeyri-yaşayış sahəsinə, 288 nəqliyyat vasitəsinə ziyan dəyib.

Xüsusi vurğulanıb ki, Azərbaycan dünyada ən çox mina basdırılmış ölkələr sırasındadır. İkinci Qarabağ müharibəsinin başa çatmasından ötən iki il ərzində 250-dən çox Azərbaycan vətəndaşı mina partlayışları nəticəsində həlak olub və ya ağır yaralanıb.

Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyev hərbi attaşelərə hadisə barədə ətraflı məlumat verib. Bildirib ki, humanitar atəşkəs rejiminin tətbiq edilməsinə baxmayaraq 2020-ci il oktyabrın 11-də gecə saat 2-də Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərində çoxmənzilli yaşayış binaları raket atəşinə tutulub. Hadisə nəticəsində 4-ü qadın olmaqla 10 nəfər şəhid olub, 35 nəfər isə yaralanıb.





Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinə ümumilikdə 5 dəfə raket və ağır artilleriya ilə hücum edilib. Nəticədə 26 nəfər şəhid olub, 142 nəfər yaralanıb, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

S.Tomuyev Prezident İlham Əliyevin tapşırığına əsasən mülki infrastruktura dəyən ziyanın aradan qaldırılması istiqamətində görülən işlər barədə də məlumat verib.

Tədbirin sonunda Müdafiə Nazirliyinin xatirə və təşəkkür plaketi Gəncə Şəhər İcra Hakimiyyəti basçısının birinci müavini S.Tomuyevə təqdim edilib.

Qeyd edək ki, səfər çərçivəsində hərbi attaşelər Nizami Gəncəvi Məqbərə Kompleksində də olublar. Burada onlara dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin yaradıcılığı barədə ətraflı məlumat verilib.

## Anım tədbiri

Gəncə terrorunun ikinci ildönümündə Azərbaycanda fəaliyyət göstərən 50-yə yaxın səfirin, diplomatik korpus nümayəndələrinin, xarici və yerli media nümayəndələrinin Nizami yurduna səfəri təşkil olunub.

Səfər zamanı xarici nümayəndələr anım tədbirində iştirak etmiş, eləcə də şəhərin infrastrukturu, yaşayış binalarına yetirilmiş və mülki şəxslərə vurulmuş ziyanın nəticələri ilə yerində tanış olmuşlar.

Diplomatlar Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərində törədilmiş terror hadisələrinin qurbanlarının anım tədbirində iştirak ediblər.

Qeyd edək ki, 21 ölkənin diplomatik nümayəndələrinin, Prezident Administrasiyasının, Baş Prokrorluğun əməkdaşları və Gəncə Şəhər İcra Hakimiyyəti başçısının iştirak etdiyi anım tədbirində erməni terroru nəticəsində dağılan ərazilər və 2020-ci il oktyabrın 11-də raket zərbəsi ilə vurulmuş "Qələbə parkı" ziyarət olunub. Diplomatlar Gəncənin raket atəşinə tutulması nəticəsində dağılan ərazilərə getmiş, günahsız mülki insanlara qarşı həyata keçirilmiş hərbi cinayətlərin nəticələri ilə yerində tanış olmuş, 44 günlük Vətən müharibəsi zamanı ballistik raketlə hədəfə alınan yaşayış massivlərinə baş çəkmişlər.

Qonaqlara cinayətlə bağlı ətraflı məlumat verilmişdir. Onlar erməni terroru zamanı həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq, dağılmış evlərin ətrafına gül düzmüşlər. Ermənistanın hərbi cinayətləri ilə tanış olan qonaqlara məlumat verilmişdir ki, işğalçı Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə Konvensiyasını pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla, yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutmuşlar. Döyüş meydanında məğlubiyyətə uğrayan Ermənistan ordusunun Gəncədə törətdiyi müharibə cinayəti nəticəsində aralarında uşaq, qadın və yaşlıların da olduğu 26 nəfər həlak olmuş, 175 nəfər yaralanmış, çoxsaylı mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir. Təkcə oktyabrın 17-də 15 nəfər həlak olmuşdur.

## 87 cinayət işi açılıb

"Vətən müharibəsi zamanı erməni silahlı birləşmələrinin cəbhə zonasında yerləşən şəhərlərimizə raket və qadağan edilən silahlarla dinc sakinləri qətlə yetirməsi ilə bağlı istintaq davam etdirilir". – bu sözləri baş prokurorun I müavini Elçin Məmmədov jurnalistlərə açıqlamasında dedi. O, bildirdi ki, ölkə Prezidentinin 14 dekabr 2020-ci il sərəncamı ilə erməni silahlı qüvvələrinin cinayətləri nəticəsində mülki şəxslərə dəymiş ziyanın aradan qaldırılması məqsədilə kompensasiyalar artıq ödənilib:

–"Sentyabrın 27-dən başlayaraq erməni silahlı qüvvələrinin törətdikləri cinayətlərlə bağlı ümumilikdə 87 cinayət işi başlanıb. Bunun 39-u mülki əhalinin qəsdən öldürülməsi ilə bağlıdır. Bundan başqa, müəyyən olunub ki, erməni silahlı birləşmələri Bakı–Novorossiysk neft kəməri, Bakı–Tbilisi–Ceyhan neft kəmərini, Mingəçevir SES-i, qəbələ hava limanını və digər strateji obyektləri də hədəfə alıblar. Qeyd olunan faktlarla bağlı 36 şəxs barəsində beynəlxalq axtarış elan edilib. Ermənilər tərəfindən ərazilərimizdə aparılan qanunsuz istismara görə, maddi ziyanın məbləği 16,2 milyard manat müəyyən olunub. Müharibə zamanı erməni tərəfindən Azərbaycan ərazisinə 29 mindən çox mərmi və 200 raket atıldığı müəyyənləşib. Müharibədən sonra 44 şəxs ermənilər tərəfindən basdırılmış minaların partlaması nəticəsində ölüb.

Beynəlxalq təşkilatlara erməni cinayətləri və muzdlular haqqında məlumatlar göndərilib".

**Hamlet QASIMOV,**
**"Xalq qəzeti"nin bölgə müxbiri,**

**Gəncə**

Xalq qəzeti .- 2022.- 18 oktyabr.- S.1;6.